# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №29 (69) • 19.12.2011

AzadliqRadiosu.az®

**Sulutəpədə evlər söküldü, qarşıdurma oldu** səh.2

**Qazaxıstanın Janaozen şəhərində fövqəladə vəziyyət elan olunub** səh.3

**Avropa Parlamenti Rafiq Tağının qətlinə dair qətnamə qəbul etdi** səh.4

Rafiq Əliyev: **«Bu xalqın yolunda istənilən çətinliyə getməyə hazıram»** səh.6

**Вторая российская РЛС в Габале?** səh.7

Əzizə Mustafazadə:**«Mən fortepianoya ərə getmişəm»** səh.10

Şarl Aznavur: **"Ermənistanda daxili soyqırım baş verir"** səh.13

## Yarıuçuq evdə yaşayan azərbaycanlı milyoner

Jurnalistlər başqasına məxsus 50-60 milyonluq zavodlara sahib olan Gəray Məmmədovu tapdılar. Bu şəxs Lerikin Ordahal kəndində qeydiyyatda olsa da, 16 ildir ki, Keşlə qəsəbəsindəki Şanxay yaşayış massivində yarıuçuq bir evdə yaşayır. Evinin qapısındaca xırdavat malları satmaqla dolandığını deyib.

səh.9



## Zbiqnev Brzejinski ABŞ-ın gələcək planlarından yazıb

*"Şimali Amerika və Avropadan tutmuş bütün Avrasiya boyunca, Yaponiya və Cənubi Koreyaya qədər uzanan və təbii ki, Rusiya və Türkiyəni də əhatə edən daha böyük Qərbin əsas prinsiplərinin başqa mədəniyyətlərə tətbiqini gücləndirəcək. Bu da universal demokratik - siyasi mədəniyyətin tədricən formalaşmasını təşviq edəcək".*

стр.8



## Lənkəranda kənd camaatı ilə sərhədçilər arasında qarşıdurma

Dekabrın 15-də axşam saatlarında Lənkəran rayonunun Nərimanabad-2 kəndində sərhədçilər yerli sakinləri balıq ovuna buraxmadıqları üçün tərəflər arasında qarşıdurma olub. Kənd sakini Tamilla Ağayeva: *«Dünən bizim kəndimizi güləbaran etdilər. 20 yanvar 15 dekabrla əvəz olunub».*

səh.5



## İməclik



# Sulutəpədə evlər söküldü, qarşıdurma oldu



Rövnəq Abdullayev

**Dekabrın 14-də Binəqədi rayonu, Xocasənin Sulutəpə yaşayış massivində əməlli-başlı küçə döyüşlərinin getdiyini desək yanılmarıq. Dövlət Neft Şirkəti Sulutəpədə söküntü işləri aparılması üçün yaşayış massivinə az qala əməlli-başlı ordu yeritmişdi. Küçələr Neft Şirkətinin təhlükəsizlik xidmətinin əli dəyənəkli, hərbi geyimli əməkdaşları, həmçinin dəbilqəli, əli dəyənəkli-qalxanlı polislərlə doldurulmuşdu. Sakinlərsə evlərinin sökülməsinin qarşısını almaq üçün onlara daş atıb ərazidən uzaqlaşdırmağa çalışırdılar.**

Neft şirkətinin işçiləri də dinc durmurdular, sakinləri daşlayır, söyüşlər yağdırırdılar. Polis hər iki tərəfi sakitləşdirməyə çalışsa da, müvəffəq olmurdu.

**«DƏYƏNƏKLƏ, TƏPİKLƏ DÖYÜRDÜLƏR»**

**- Burda yaşayansınız?**

- Bəli.

**- Sizi kim bu günə qoyub?**

- SOCAR-ın işçiləri.

**- Nə ilə vurdular?**

- Dəyənəklə, təpiklə.

**- Polis sizi bu vəziyyətdə gördü?**

- Polisin özünü də döydülər.

Xəsarətlərdən üzündə-gözündə salamat yer qalmayan Sulutəpə sakini Rəhman Tağıyev deyir ki, Dövlət Neft Şirkətinin təhlükəsizlik işçiləri tərəfindən döyülməyi bir tərəfə, evi də bir anın içərisində yerlə-yeksan edilib.

**«ADAMIN EVİNİ BELƏ YIXARLAR?»**

**- Adamın evini belə yıxarlar? Prezidentin o boyda qərarı var ki, üstüörtülü evi sökmək olmaz. Prezidentin qərarına belə hörmətlə yanaşırlar?**

Bu, damını bir gün əvvəl örtüb getdiyini, ikimərtəbəli evinin sökülməsi xəbərini yolda eşidib gəldiyini deyən Şakir Hüseynovdur. Hadisə yerinə gələndə evinin uçurulduğunu görən ev sahibi göz yaşlarını saxlaya bilmədi:

**- Evi bələdiyyə sənədi ilə tikmişəm. Heç bir bildiriş, məhkəmə qərarı yoxdur. Bir adam gəlib deməyib ki, bunu tikmək olmaz. Özbaşınalıqdır.**

**ƏŞYALARI İLƏ BİRLİKDƏ UÇURULAN EVLƏR**

Ərazidə bəzi uçurulmuş evlər də vardı ki, sahibləri bundan axşam işdən qayıdandan sonra xəbər tutacaqdılar. Belə evlər əşyaları içərisində ola-ola uçurulmuşdu.

Təqribən saat 5-ə qədər ərazidə evləri uçurmaq üçün fürsət gəzən neft şirkəti işçiləri özləri ilə gətirdikləri ağır texnikayla küçələri dolaşsalar da, sakinlərin kütləvi etirazları onlara söküntü işlərini davam etdirməyə imkan vermədi. Sakinlər dedilər ki, «belə hallar tez-tez baş verir. SOCAR işçiləri əraziyə bir də ara sakitləşəndən sonra qəflətən gələcəklər və bir neçə ev də söküb etirazlar altında çıxıb gedəcəklər».

**MƏHKƏMƏ QƏRARI OLMADAN...**

**Dövlət Neft Şirkəti mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyevə müraciət etdik:**

- Sakinlər deyirlər ki, heç bir bildiriş, məhkəmə qərarı almayıblar.

- Məhkəmə qərarı olmadan heç bir yerdə ev sökmək olmaz. Oralar "Binəqədi Oil" şirkətinin əraziləridir. Bizim təhlükəsizlik idarəsi onların obyektlərini də qoruyur.

- SOCAR işçiləri evi sökülən sakinləri döyürdülər. Hətta xəstəxanaya aparılanlar da oldu.

- Mən orda olmamışam. Heç nə deyə bilmərəm, yalnız onu deyə bilərəm ki, məhkəmə qərarı olmadan belə şey mümkün deyil.

**İCRA MƏMURLARI VƏ POLİS**

Hüquqşünas Namizəd Səfərov deyir ki, mülk məhkəmə qərarı olmadan sökülə bilməz. Hətta məhkəmə qərarı olsa belə, ərazidəki söküntü işlərində yalnız icra məmurları iştirak edə bilərlər. Məhkəmə qərarının icrası çətinləşsə, icra məmurları icra yerinə polis də dəvət edə bilərlər ki, icra prosesində asayişi qorusun.

Bu ilin mart ayında prezident İlham Əliyev keçirdiyi müşavirədə sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı göstəriş verib. Belə evlərin sənədləşdirilməsinə dair ilkin layihə hazırlanaraq Milli Məclisə təqdim olunub.

***Esmira Cavadova***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru






Kəmaləddin Heydərov

# Kəmaləddin Heydərov: «Bu il 910 obyektdə tikinti işləri dayandırılıb»

*910 obyektdə tikinti işlərinin müvəqqəti dayandırılmasına dair qərar qəbul edilib. Bunu Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 6-cı ildönümü münasibətilə keçirilən tədbirdə çıxışı zamanı nazir Kəmaləddin Heydərov deyib.*

«Bu il 3300-dək obyektə nəzarət edilib və onlardan 1200-də qüsurların aradan qaldırılması üçün tapşırıqlar verilib, 910 obyektdə tikinti işlərinin müvəqqəti dayandırılmasına dair qərar qəbul edilib» - deyə K.Heydərov bildirib.

# Qazaxıstanın Janaozen şəhərində fövqəladə vəziyyət elan olunub


Almatının mərkəzində Janaozendə baş verənlərə qarşı etiraz aksiyası

**Prezident Nursultan Nazarbayev Janaozen şəhərində 20 günlük fövqəladə vəziyyət rejimi tətbiq edib. Son rəsmi məlumata əsasən, şəhərdə baş vermiş hərc-mərclikdə 11 adam ölüb, 80-dən çox adam yaralanıb.**

Şənbə günü Almatının mərkəzində də hakimiyyət əleyhinə aksiya keçirilib. Bir neçə adamın saxlandığı xəbər verilir. Aksiyaçılar ölkənin qərbindəki Janaozen şəhərində baş verənlərə etiraz bildiriblər. Şəhərdə baş vermiş toqquşma zamanı azı 10 adamın öldüyü, 75 mülki sakin və 6 polisin yaralandığı xəbər verilir. Sosial şəbəkələrdə gedən məlumatlarda ölənlərin bundan çox olduğu bildirilir. Toqquşma polis artıq 6 aydır şəhərin mərkəzi meydanını zəbt etmiş kütləni dağıtmaq istəyərkən baş verib.

Onlar KazMunaiGaz dövlət neft şirkətinə məxsus Uzenmunaigaz firmasının işçiləridir. Fəhlələr maaşların artırılması və iş şəraitinin yaxşılaşdırılmasını tələb edirlər. Qazaxıstan Daxili İşlər Nazirliyinin məlumatına görə, hərc-mərcliyə səbəb tətil edən neftçilərin işdən azad edilməsi olub. Şəhərə zirehli texnika yeridilib. Polis kütləni dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib.Daxili işlər naziri Kalmukhanber Kasymov vəziyyətin nəzarətə götürüldüyünü və 70-ə yaxın adamın saxlandığını deyir.

Ölkə müxalifəti və beynəlxalq təşkilatlar baş verənlərin hərtərəfli və obyektiv araşdırılması üçün müstəqil komissiya yaradılmasını tələb edir.

**AzadliqRadiosu.az saytında baş verənlərlə bağlı TV-lərin yaymadığı videolara baxmaq olar.**

# Prezident Administrasiyası qarşısında ağac aksiyası



**Əllərində «Möhtərəm prezident, yaşıl zolağın məhv edilməsinə imkan verməyək!» sözləri yazılan plakatlarla 10-dan çox Bakı sakini dekabrın 16-da Prezident Administrasiyasının qarşısına toplaşıblar. Onlar Xıdır Mustafayev və Şərifzadə küçələrinin kəsişməsində yerləşən yaşıllığın məhv edilməsinə etirazlarını bildirirlər. Sakinlər iddia edir ki, yaşıllıq zolağı salınan ərazi hansısa tikinti şirkətinə satıldığı üçün məhv edilir.**

**«FUTBOL TOPU»**

Bir qəbuldan digərinə tələsən və bağlı qapı ağzında gözləyən sakinlər özlərini futbol topuna bənzətdilər. Prezident Administrasiyası qarşısında sakinlərin əllərindəki plakatları polis alandan sonra onları qurumun dövlət-hüquq şöbəsinin müdiri Nailə Hüseynova qəbul etdi. Şöbə müdiri sakinlərin problemini dinlədikdən sonra onları Bakı Şəhər İcra Hakimiyyəti aparatının rəhbər Rasim Quliyevin qəbuluna göndərdi. Rasim Quliyev isə şikayətçiləri 2 saatdan sonra qəbul etdi və Bakı Şəhər İcra Hakimiyyəti nümayəndələrinin iştirakı ilə ərazidə araşdırma aparılacağını bildirdi.

**«YAŞILLIQLARA BOŞ ƏRAZİ KİMİ BAXIRLAR»**

«Artıq ağaclar kəsilib. Nəyi araşdıracaqlar? Kəsilən ağacların yerinə yeniləri əkilsə belə 20-30 ildən sonra indiki vəziyyətinə çata biləcək». Bunu deyən Yaşıllar Hərəkatının sədri Fəridə Hüseynova isə düşünür ki, Bakı Şəhər İcra Hakimiyyətinin araşdırma ilə bağlı verdiyi yalnız vəddir.

***Nüşabə Fətullayeva***



# Vaslav Havel vəfat edib

*Keçmiş Çexiya prezidenti Vaslav Havel 75 yaşında vəfat edib. Bu barədə Çexiya mətbuatı xəbər verir. 1996-cı ildə Havelin ağciyərində əməliyyat aparılıb. Bundan sonra eks-prezidentin ağciyəri və yuxarı tənəffüs yollarında problemlər yaranmışdı. Vaslav Havel 1936-cı il oktyabrın 5-də Praqada tanınmış ailələrdən birində dünyaya gəlib.*

Dissident və dramaturq Vaslav Havel 1968-ci il "Praqa Baharı" hadisələrindən sonra azad fikir və təfəkkürünə görə dəfələrlə həbs olunur və elə həmin dövrdən fəal şəkildə əsərlər yazmağa başlayır. 1975-ci ildə isə onun "Qustav Qusaka açıq məktub"u meydana çıxır.

1979-cu ildə Vaslav Havel və digər beş çex dissidentə qarşı təxribatçılıq fəaliyyəti ilə bağlı ittiham irəli sürülür. 1989-cu ilin payızında Çexoslovakiyada tələbələrin çıxışı ilə "Məxməri inqilab" başlayır. Havel Çexiyada müxalifət qüvvələrdən birinə çevrilən "Vətəndaş Forumu" yaradılmasının təşəbbüskarlarından biri olur və tezliklə siyasətçi kimi məşhurlaşır.

1989-cu il dekabrın 29-da ÇSSR-in Federal Yığıncağının hər iki palatasının birgə iclasında Havel yekdilliklə prezident seçilir. 1993-cü il fevralın 2-də isə Havel müstəqil Çexiyanın ilk prezidenti olur. 1998-ci ildə yenidən prezident seçilən Havel, 2003-cü ilin fevralında hakimiyyətdən gedir. Havel "Xartiya 77" nin imzalanmasının əsas təşəbbüskarlarından biridir.

O, "Olqaya məktublar", "Açıq məktublar", "Sülhü pozma", "Yay meditasiyası" və "Gücsüzlərin gücü" kimi kitabların müəllifidir.

# Avropa Parlamenti Rafiq Tağının qətlinə dair qətnamə qəbul etdi

**Rafiq Tağının ailəsini artıq polis mühafizə etmir. Bu barədə AzadlıqRadiosuna onun qardaşlarından biri məlumat verib. Yazıçı-publisistin ailəsinin təhlükəsizliyini Daxili İşlər Nazirliyinin ayırdığı mühafizə qrupu qoruyurdu. Baş prokurorun 1-ci müavini Rüstəm Usubovla Daxili İşlər nazirinin müavini Vilayət Eyvazovun rəhbərliyi ilə keçirilən müşavirədə isə istintaq-əməliyyat qrupunun hesabatı dinlənilib. Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb. Məlumata görə, istintaq aparan qrupa əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsi ilə bağlı konkret tapşırıq və tövsiyələr verilib.**

Dekabrın 15-də isə Avropa Parlamenti Azərbaycan yazıçısı Rafiq Tağının qətlini pisləyən qətnaməni qəbul edib. Sənəddə deyilir ki, Avropa Parlamenti Azərbaycan yazıçısı Rafiq Tağının qətlini qəti şəkildə pisləyir və Azərbaycan hökumətinin Rafiq Tağının qətlini aydın şəkildə pisləməməsindən, ictimaiyyətin istintaqın gedişi ilə bağlı dolğun məlumat almasını təmin etməməsindən məyus olub. Avropa Parlamenti Azərbaycan hökumətinin Rafiq Tağının qətlinin açılması üçün xüsusi qrup yaratmasını alqışlayır və onu istintaqın hərtərəfli və effektiv aparılması, qatillərin ədalətli məhkəmə ilə bağlı beynəlxalq standartlara uyğun şəkildə məsuliyyətə cəlb edilməsini təmin etməyə çağırır.

Qətnamədə ayrıca bənd olaraq Azərbaycan hökumətindən istənilir ki, vaxtilə Rafiq Tağı ilə birlikdə "dini ədavəti qızışdırmaq" ittihamı ilə məhkum edilmiş yazıçı Samir Sədaqətoğlunun təhlükəsizliyi təmin olunsun. Avropa Parlamenti xatırladır ki, Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Konvensiya söz və ifadə azadlıqlarına, o cümlədən din və inanc sistemlərinin tənqid edilməsinə təminat verir. Parlament Azərbaycan hökumətini çağırır ki, "dinlər mövzusunda sərbəst debatların qarşısının alınması üçün cinayət məcəlləsindən sui-istifadə etməkdən çəkinsin".

**"DİNLƏR TƏNQİD EDİLƏ BİLƏR"**

Qətnamədə deyilir ki, "bəzi din və inanc sistemlərinin tərəfdarlarının ayrı-ayrı şəxsləri hədələməsi və onlara qarşı zorakılığa çağırması, buna səbəb kimi həmin şəxslərin fikirlərinin "təhqiramiz" olduğunu göstərməsi tamamilə yolverilməzdir. Belə hədələrə və zorakılığa çağırışlara yol verənlər məsuliyyətə cəlb edilməlidir. Hədələrə məruz qalan şəxslərinsə təhlükəsizliyinə tam təminat verilməlidir".

**AVROPA BİRLİYİNDƏN İRANA SƏRT MESAJ**

Avropa Parlamenti qətnamədə İran hökumətinə də müraciət edib. Qətnamə İran hökumətini indi İran parlamentində müzakirə olunan yenilənmiş Cinayət Məcəlləsi layihəsindən "ölümə layiq olma" konsepsiyasını çıxarmağa çağırır. Avropa Parlamenti çox narahatdır ki, ayrı-ayrı şəxslərin qətlinə çağıran



ölüm fitvaları İran məhkəmələrində qatillər tərəfindən öz əməllərinə bəraət qazandırılması üçün istifadə edilə bilər, öldürülən şəxsin "öldürülməyə layiq olduğu" səbəb gətirilə bilər.

Parlament İran hökumətini çağırır ki, ölkənin daxilində və xaricində qətllərə çağıranlar, qətlləri planlaşdıranlar, yaxud icra edənlərin ədalət məhkəməsinə cəlb olunması təmin edilsin. Qətnamədə İran hökumətindən istənilir ki, Rafiq Tağının qətli ilə bağlı istintaqda Azərbaycan hökuməti ilə əməkdaşlıq etsin, İran ruhanilərinin ölkə daxilində, yaxud başqa dövlətin ərazisində kiminsə qətlinə çağırmasının qarşısını alsın.

**"MƏRUZƏÇİ AZƏRBAYCANA BURAXILSIN!"**

Qətnamədə Avropa Parlamenti Azərbaycan hökumətini Avropa Şurası Parlament Assambleyasının siyasi məhbuslar üzrə məruzəçisinə viza vermədiyinə görə də tənqid edir. Qətnamə Azərbaycan hökumətini məruzəçinin siyasi məhbuslarla bağlı vəziyyəti araşdırması üçün ölkəyə gəlməsinə şərait yaratmağa çağırır.

***Rövşən Qənbərov***

# Təzəxan Mirələmli yenə həbs edildi



Təzəxan Mirələmli

**AXCP-nin Cəlilabad rayon təşkilatının sədri Təzəxan Mirələmli dekabrın 16-da 10 sutka inzibati həbs cəzası alıb.**

**Bu haqda AzadlıqRadiosuna onun yaxınları məlumat verib.**

Dekabrın 15-də Lənkəran Ağır Cinayətlər Məhkəməsində Təzəxan Mirələmlinin qətldə təqsirləndirilən azyaşlı oğlunun mühakiməsi başlayıb. Məhkəmə prosesindən sonra oğlu ilə görüş tələb edən atayla polis arasında mübahisə düşüb. İki polis əməkdaşı və bağban onun məhkəmə binasında xuliqanlıq etdiyini iddia etmişdi. Hətta polislərdən biri Təzəxan Mirələmlinin onun poqonunu sökdüyünü demişdi. Vəkil Mənsum Bayramov isə deyir ki, Təzəxan Mİrələmli həm də azyaşlı oğlunun qanuni nümayəndəsidir. Dekabrın 19-da isə məhkəmə prosesi davam etməlidir.

"Qanuni nümayəndə olmadan məhkəmə keçirilməməlidir. Amma bu halda hansı qərar veriləcək məlum deyil". Bu ilin aprelində İctimai Palatanın mitinqində xəsarət alan Təzəxan Mirələmli az sonra işdən çıxarılıb. Eyni zamanda azyaşlı oğlu məktəb yoldaşını bıçaqlamaqda təqsirləndirilir.

***Şahnaz Bəylərqızı***



# Lənkəranda kənd camaatı ilə sərhədçilər arasında qarşıdurma

**Dekabrın 15-də axşam saatlarında Lənkəran rayonunun Nərimanabad-2 kəndində sərhədçilərlə sakinlər arasında insident baş verib. Onlarla insan etiraz aksiyası keçirib. Sərhədçilər yerli sakinləri balıq ovuna buraxmadıqları üçün tərəflər arasında qarşıdurma olub. Bununla bağlı Daxili İşlər Nazirliyi dekabrın 16-da məlumat yayıb. Məlumatda deyilir ki, bir qrup sakin dəniz sərhədlərini pozaraq qanunsuz balıq ovlayıb. Bu zaman onlardan 9 nəfəri Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən saxlanılıb: «Həmin şəxslərin yaxınları, təxminən 150 nəfər kənd sakini sərhəd zastavasına gələrək hərbçilərə təzyiq göstərib, onların azad olunmalarını tələb ediblər. Daxili işlər orqanlarının hadisə yerinə gəlmiş əməkdaşları kənd sakinlərini sakitləşdirməyə çalışıb, asayişi pozmamağa dəvət ediblər. Amma onlardan bir qrupu polis əməkdaşlarına müqavimət göstərib, müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər».**

Saxlanılan şəxslərdən 3-nün izahatı alındıqdan sonra buraxılsa da, 6-sı saxlanıb. Fakt üzrə Cinayət Məcəlləsinin 315.1-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) və 221.3-cü (xuliqanlıq) maddələri ilə cinayət işi başlanıb.

**NƏRİMANABADDA YARALANANLAR VAR**

Nərimanabad sakinləri AzadlıqRadiosuna deyirlər ki, onlar 9 nəfər həmkəndlilərinin buraxılması üçün sərhəd zastavasının qarşısına yığışıblar. Az sonra kəndə Daxili Qoşunların əsgərləri və hərbi texnika yeridilib. Kənd sakinləri müxbirimizə gecə atılan rezin güllələrin qalıqlarını göstəriblər. Yaralananlar da var. Dəqiq say deyilmir. Yenə də kənd sakinlərinin dediklərinə görə, bir nəfərin halı daha ağırdır. O, Rahil Vəliyevdir. Üstündən PDM keçib. İndi o, Lənkəranda «Böyük Xəstəxana» kimi tanınan müalicə müəssisəsinə yerləşdirilib.

**«QARDAŞIMI HƏYƏTİMDƏ VURUBLAR»**

«Bir nəfər də yaralanıb. Ramiz Xankişiyev, qardaşımdır. Onu öz həyətimdə vurublar. Ona atılan güllə də əlimdədir. Gecənin bir yarısı öz xalqına



belə basqın olar? Belə deyirdilər ki, biz sizi Xocalıdan betər edəcəyik».

Bunu kənd sakini İsrail Xankişiyev deyir: «Bu, prezidentə qarşı təxribatdır. Camaatı veriblər güllələbarana. Elə adam var evinin içində yaralayıblar. Göz-yaşardıcı qazdan istifadə ediblər. 70 yaşında ananın ürəyi getdi».

**«QAYIQLARI BATIRDILAR»**

İsrail Xankişiyev deyir ki, Nərimanabad sakinlərinin yeganə dolanışıq yeri dənizdir. Amma onlara da balıq ovlamağa imkan vermirlər. Dünən dənizə çıxan balıqçıları da buna görə saxlayıblar: «Balıqçılar dənizə gedirlər çörəkpulu qazanmaq üçün. Dənizçilərin qayıqlarını tutub batırıblar, sındırıblar. Dünəndən əsir-yesir olmuşuq. 9 nəfər tutublar. Camaat da xahiş elədi ki, uşaqları buraxın. Bir də gördük ki, Daxili Qoşunlar kəndə daxil oldu».

İsrail Xankişiyev deyir ki, saxlananlar arasında eləsi var yeməkxanadan çıxıb evinə gedirmiş: «Elə adam var yolda tutublar, qohum evinə getdiyi yerdə. Eləsi də var yeməkxanadan çıxanda, içkili halda tutublar. Ağlı başında olmayan adamı aparıblar ki, guya dövlət əleyhinə çıxıb...».

**«HEYDƏR BABA SAĞ OLSAYDI...»**

Nərimanabad sakini Tamilla Ağayeva həyəcandan çox danışa bilmir: «Balalarımızı öldürürlər. Dünən bizim kəndimizi güllələbaran etdilər. 20 yanvar 15 dekabrla əvəz olunub».

Dilarə Eyvazova isə bunları söyləyir: « 71 yaşım var, müharibədə belə şey görmədim. Uşaqlarımız xəstəxanadadırlar. Heydər baba sağ olsaydı, bizə zülm etməzdilər».

**POLİS KƏNDƏ NƏZARƏT EDİR**

AzadlıqRadiosunun müxbiri deyir ki, dəyənəklərin izi bəzilərinin üzündə qalmaqdadır. Hazırda Nərimanabad polis maşınları ilə əhatə olunub, polis kəndə nəzarət edir. Kənd sakinləri deyirlər ki, tutulan 6 nəfər buraxılmasa, Bakıda etiraz aksiyası keçirəcəklər. Onlar prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyevadan yardım istəyirlər.

**AYDA 100 MANAT?**

Üç tərəfdən dənizlə əhatə olunan, əkin üçün yararlı torpağı olmayan kəndin yeganə dolanışıq mənbəyi balıqçılıqdır. Kənd sakini İsrail Xankişiyev: «Burda ancaq balıqqulağı var. Nə zavod var, nə fabrik... Sərhəd Qoşunu da deyir ki, hər ay 100 manat verməlisiniz. Camaatın da imkanı yoxdur, qışdır, adam var evdə heç odunu yoxdur. Bütün kənd banklara faizə girib».

Rəsmi qurumlar bu deyilənlərə aydın-



lıq gətirməkdən imtina ediblər.

**«NƏZARƏTÇİLƏRİN HAQQI»**

Masallıda nəşr olunan «Cənub xəbərləri» qəzetinin redaktoru Zahir Əmənov isə Nərimanabadda balıqçılara qoyulan məhdudiyyətlərdən danışır: «Hansı quruluş olur-olsun, burda dolanışıq mənbəyi balıqçılıqdır. Balıq yoxdursa, bu onları diri-diri məhv etməkdir. Nəzarətçilərin də öz haqqı var. Onlara pul verəndə, balıqçılara heç nə qalmır. Camaatın qayığını aşırırlar, adını da qəza qoyurlar. Belə şayiələr də gəzir ki, narkotik alverçilərinə görə onları dənizə buraxmırlar».

***Müstəcəb Məmmədov, Şahnaz Bəylərqızı***

# Rafiq Əliyev: «Bu xalqın yolunda istənilən çətinliyə getməyə hazıram»


Rafiq Əliyev

**Ziyalılar Forumundakı tənqidi çıxışlarına görə ADNA-dakı kafedra müdiriyindən çıxarılan akademik Rafiq Əliyev AzadlıqRadiosunun «İşdən sonra» proqramında dinləyicilərin suallarını cavablandırıb. Verilişdən bəzi sitatları diqqətinizə çatdırırıq:**

**NEFT AKADEMİYASINDAKI VƏZİFƏSİNDƏN ÇIXARILMASI HAQDA**

- «Söhbət burda vəzifədən kənarlaşdırmaqdan getmədi. Burda söhbət ədalətsizliyə olan reaksiyadan gedirdi. Mən bunu öyrənmək istədim».

- «Onlar bu hərəkətləri ilə qıcıq verdilər cəmiyyətə. Bu, zor qıcığı idi. Amma cəmiyyət bunu pozitiv qıcıq kimi qəbul etdi. Çünki cəmiyyət ədalət istəyir».

- «Hökuməti, nazirləri mən bu söhbətə qatmıram. Çünki qıcığı verən onlar deyildi. Bunu idarəetmə ierarxiyası edirdi».

- «Belə bir eksperiment aparıldı ki, görəsən, zor gücünə ziyalını susdurmaq mümkündürmü? Gördülər ki, bu, mümkün deyil».

**SİYASƏT HAQDA**

- «Hazırda əsas üsul zor üsuludur, basqı üsuludur. Kim dindi, özünü işdən çıxar, övladını işdən çıxar. Amma bu, effekt verməyəcək».

- «Heç kim gəlib bizim əvəzimizə burda düzəliş aparmayacaq».

- «Xalqın gərək gücü olsun ki, bu problemləri həll edə bilsin. Hər şeyi hakimiyyətin, başqa dövlətlərin üstünə atmaq düzgün deyil».

- «Azərbaycanda çox dəbdədir çörək imtahanı».

- «İstəyirik ki, bizdə hadisələr yumşaq keçsin. Bunun üçün də islahatlar lazımdır».

**ZİYALILAR FORUMUNA QARŞI İQTİDAR KAMPANİYASI HAQDA**

- «Mənə qarşı imza atanlara yazığım gəlir. Onları zəlil gününə qoydular. İmtina edən, imza atmayan insanlar da yetərincə idi. Cəlal Allahverdiyevin vicdanı susmadı. Mənim əleyhimə imza atanlarla da salamlaşaram».

- «Ziyalılar Forumunda heç kim istəmir ki, ərəb ölkələrində baş verənlər burda baş versin. Biz yalnız ağrıyan yeri deyə bilərik, siyasi fəaliyyət yoxdur».

**CƏMİYYƏT HAQDA**

- «Şükürlər olsun ki, cəmiyyətdə dinamika pozitivdir».

- «Mənimçün maraqlı odur ki, bizim cəmiyyətimizin durumu nə gündədir. Onun sabahı, perspektivləri necə olacaq?».

- «Allah bizə bu nefti veribsə, əvəzində başqa şeyi alıb - bir az ədaləti alıb, bir az cəmiyyətin süskünlüyünü verib. Müxtəlif sahələrdə balans pozulub».

- «Azərbaycanda islahatlar gedəcək, Azərbaycan dəyişəcək. Ona görə ki, dəyişməyə bilmərik. Alternativ yoxdur buna. Çünki dünya dəyişir».

- «Bizim heç bir siyasi iddiamız yoxdur. Amma cəmiyyətdə olan eybəcərliklərə dözmək düzgün deyil».

**RAFİQ ƏLİYEV RAFİQ ƏLİYEV HAQDA**

- «Səbirli olmağım peşəmlə əlaqədardır».

- «Bu situasiyada öyrənmək istədiyim cəmiyyət idi. Çünki bu hadisələrin arxasında duranlar məlum idi. Mənim üçün maraqlı idi ki, cəmiyyətimiz ayaqdadır, ya yox».

- «Mən yüzdəyüz deyirəm ki, bu xalqın yolunda istənilən çətinliyə getməyə hazıram. Hətta qələmimi süngüyə çevirib Qarabağa getmək lazım olsa belə gedərəm».

- «Məni nələr gözlədiyini bilirdim. Mən bu obyekti öyrənmişdim».

***Xədicə İsmayılova, Kamran Mahmudov***



# Məhbusların uşaqları: Atalarımızın günahı nədir?

Dekabrın 17-də həbsdə olan müxalifətçilərin uşaqları üçün Yeni il şənliyi keçirilib. Vətəndaş Həmrəyliyi Partiyasında keçirilən şənlik AXCP Qadınlar Şurasının təşəbbüsü ilə baş tutub. AXCP sədrinin müavini Gözəl Bayramlı deyir ki, bu tədbiri keçirməkdə məqsədləri məhbus ailələrini bir araya yığmaq və cəmiyyətin diqqətini bir daha onlara yönəltmək olub: «Vicdan məhbuslarının arxasında 24 körpə uşağın taleyi dayanır. Heç bir hakimiyyətin haqqı yoxdur ki, bu uşaqların taleyi ilə oynasın, onların atalarını günahsız yerə məhbəsdə saxlasın. Biz hakimiyyətə bir daha demək istəyirik ki, onların həbs etdiyi insanlar heç bir qanunu pozmayıblar». Tədbirdə uşaqlar çıxışlar ediblər. Onlar atalarının hansı səbəbdən həbsdə olmasını özləri anladıqları kimi izah etməyə çalışıblar, bayramları ataları ilə birlikdə keçirmək istədiklərini deyiblər. Daha sonra onlar musiqi nümunələri ilə çıxış edib, şeirlər deyiblər. Sonda uşaqlara Yeni il hədiyyələri paylanıb.

Bu il 17 fəal həbs olunub. Onlardan 13-ü 2 aprel aksiyasının iştirakçılarıdır. Beynəlxalq təşkilatlar onların həbsini siyasi motivli sayır.

***Maarif Çingizoğlu***

İşdən Sonra

Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41 Elektron ünvan: efir@azadliqradiosu.az

# Студентам шестнадцати лет...


Мисир Марданов

**«Направление в США или другую зарубежную страну для получения образования 16-летнего студента неправильно. Нет толку в этом. Более целесообразным является направление за границу для продолжения образования после 1-ой и 2-ой ступеней высших учебных заведений», - заявил в среду министр образования Азербайджана Мисир Марданов.**

Он отметил, что азербайджанским студентам следует продолжать образование в зарубежных странах после получения диплома о высшем образовании. По словам министра, на основе госпрограммы по обучению азербайджанской молодежи за рубежом в 2007-2011 годах среди получивших образование за рубежом преобладает число бакалавров. Марданов отметил, что министерство придает "большее значение" продолжению образования за рубежом после получения высшего образования в Азербайджане: За время независимости на основе договоренности более 2 500 азербайджанцев получило образование за рубежом за счет средств, выделенных Азербайджану такими странами, как Турция, Россия, Египет, Китай».

Марданов отметил, что с начала выполнения государственной программы по обучению в зарубежных странах в 2007-2015 годах по сегодняшний день были направлены в ведущие вузы мира 1 204 азербайджанца для получения образования по специальностям, в которых имеется потребность в Азербайджане:

«В рамках программы в 2010-2011 учебном году для обучения почти в 200 престижных вузах 24 стран мира были направлены 275, в 2011-2012 учебном году – 421 человек».

# Вторая российская РЛС в Габале?

Россия планирует построить к 2019 году новейшую радиолокационную станцию (РЛС) "Воронеж-ВП" в Габале, сообщил в интервью РИА Новости гендиректор Радиотехнического института имени академика Минца Владимир Савченко. Сообщается, что эта станция заменит РЛС предыдущего поколения «Дарьял». "Что касается сроков, по планам это 2017-2019 годы, но все зависит от доброй воли наших уважаемых соседей - окончательно договоренности будут закрепляться на политическом уровне", - сказал Савченко.

По словам Савченко, «речи о демонтаже старой станции типа "Дарьял" не идет, так как эта РЛС находится в собственности Азербайджана». "Новая станция, которую мы планируем построить, будет собственностью России, причем, она будет модульной. То есть, ее всегда можно демонтировать, вывезти и собрать где-нибудь рядом", - уточнил собеседник агентства.

Министр обороны России Анатолий Сердюков в ноябре заявил, что «Россия планирует полностью перестроить РЛС в Габале и одновременно уменьшить объем территории, арендуемой под нужды станции».

По словам Сердюкова, «РЛС будет изготовлена на заводе в России и уже непосредственно смонтирована в Габале». Азербайджан намерен повысить цену за аренду Россией Габалинской РЛС. Еще одно условие - увеличение персонала азербайджанских военных на РЛС, а также передача местным жителям сферы услуг - питания, торговли и иных - в военном городке при станции.

По словам Сердюкова, Россия заинтересована в сохранении прежней стоимости аренды. Станция будет полностью перестроена, при ее новом облике большой объем коммуникаций не понадобится. Габалинская РЛС была построена в советское время в качестве одного из важнейших элементов системы противоракетной обороны СССР. После обретения независимости Азербайджаном и перехода РЛС в его собственность Россия продолжала использование станции. Десятилетнее соглашение об аренде Россией РЛС было подписано в 2002 году, напоминает РИА Новости.


Жак Ширак

# Бывший президент Франции получил 2 года...

*Суд Парижа приговорил бывшего президента Франции Жака Ширака к двум годам лишения свободы условно. Он признан виновным в незаконном присвоении денег и превышении служебных полномочий во время работы на посту мэра французской столицы. Это первый во Франции обвинительный приговор бывшему главе государства со времен второй мировой войны.*

Сам Ширак при оглашении приговора не присутствовал по состоянию здоровья. Жак Ширак возглавлял парижскую мэрию в течение 18 лет, с 1977 по 1995 год. По версии обвинения, Ширак и еще девять обвиняемых создали около тридцати фиктивных рабочих мест, которые будущий президент Франции использовал в интересах собственной политической кампании.

Среди обвиняемых также есть внук генерала де Голля Жан де Голль и сын бывшего премьер-министра Мишеля Дебре Франсуа Дебре.

***Елизавета Алисова***

## На сайте РадиоАздлыг - radioazadlyg.org:

- **Беспорядки в Казахстане**
- **Телеобращение Путина к жителям России**
- **Дело рядового Мэннинга и WikiLeaks**
- **Снос домов в Сулутэпэ**
- **США теряет базу в Пакистане**
- Чингиз Султансой: **Первые и последние. Джавад хан**
- Зафар Гулиев: **Приключение "Азербайджана после Гейдара Алиева"**

# Məşhur strateq ABŞ-ın gələcək planlarından yazıb

"Çinin böyüdüyü bir vaxtda ABŞ-ın yeni strategiyası"

*Zbiqner Bzejinski*



**Böyük dövlət əgər ancaq bu günün problemləri ilə məşğul olsa, sonda özünü dünənin münaqişələri içində görür. Ona görə də böyük dövlət daha uzaqgörən strategiya ilə hərəkət etməlidir. ABŞ üçün növbəti bir neçə onillik ərzində əsas məsələ özünü yenidən canlandırmaq, bu zaman Qərbin genişlənməsini təşviq etmək və Çinin artan qlobal statusuna uyğunlaşmaq məsələləri olacaq. Şimali Amerika və Avropadan tutmuş bütün Avrasiya boyunca, Yaponiya və Cənubi Koreyaya qədər uzanan və təbii ki, Rusiya və Türkiyəni də əhatə edən daha böyük Qərbin əsas prinsiplərinin başqa mədəniyyətlərə tətbiqini gücləndirəcək. Bu da universal demokratik - siyasi mədəniyyətin tədricən formalaşmasını təşviq edəcək.**

**EYNİ ZAMANDA ABŞ ŞƏRQLƏ DƏ İŞLƏMƏYİ DAVAM ETDİRMƏLİDİ**

Əgər ABŞ və Çin bir çox məsələdə bir-birini razı sala bilsə, Asiyada sabitlik perspektivi xeyli artacaq. Bunun baş verməsi o halda daha real olacaq ki, ABŞ Çin və Yaponiyanı səmimi barışığa həvəsləndirə, Çin və Hindistan arasındakı artan rəqabəti yumşalda biləcək. Avrasiyanın həm Qərbində, həm də Şərqində effektiv fəaliyyət göstərə bilmək üçün ABŞ dünyaya ilk növbədə özünü islah etmə niyyətini göstərməlidir. Amerikanlar vurğunu daha çox dövlətin daha incə dəyərləri olan innovasiya və təhsilə vurmalıdırlar. Yeniləşən Qərbin təminatçısı olmaq üçün ABŞ Avropa ilə sıx əlaqələr saxlamalı, NATO ilə bağlı öhdəliklərini davam etdirməli, Türkiyə və həqiqətən demokratikləşmiş Rusiyanın Qərbə yolunu açmalıdır.

O həmçinin Avropa Birliyini də daha dərin birliyə həvəsləndirməlidir. Fransa, Almaniya və Böyük Britaniya ilə sıx əməkdaşlıq etməli və əlaqələri daha genişləndirməlidir. 2025-ci ildən sonra Qərbin daha geniş formatını təsəvvür etmək utopiya deyil. Növbəti bir neçə onillikdə Rusiyada Avropa Birliyi və NATO standartlarına uyğun hərtərəfli demokratik dəyişikliklər baş verə bilər. Hazırda Rusiyadakı nümayişlər bu ölkədə gənc, orta təbəqənin yarandığını göstərir. Bu təbəqə getdikcə daha çox beynəlmiləlçidir və vətəndaş hüquqlarından kifayət qədər məlumatlıdır.

**ÖZ NÖVBƏSİNDƏ TÜRKİYƏ DƏ AVROPA BİRLİYİNİN TAM HÜQUQLU ÜZVÜ OLMALIDIR**

Yalnız bu halda bu iki ölkə transatlantika cəmiyyəti ilə inteqrasiya yoluna qədəm qoyacaq. Əgər ABŞ genişlənmiş Qərbin yaranmasına nail ola bilməsə, bu, pis nəticələrlə nəticələnə bilər. Misal üçün, Rusiya öz enerji ehtiyatlarından istifadə edərək Ukraynanı uda və özünün imperiya ambisiyalarını yenidən canlandıra bilər. Avropa Birliyi passiv qalsa, bəzi Avropa dövlətləri, məsələn, Almaniya, ya da İtaliya öz iqtisadi maraqlarından çıxış edərək Rusiya ilə dil tapmağa çalışar, Fransa və Böyük Britaniya bir-birlərinə daha da yaxınlaşar, Polşa və Baltik ölkələri çarəsiz şəkildə ABŞ-dan əlavə təhlükəsizlik təminatları xahiş edərlər. Nəticə Qərb üçün çox pessimist olar.

ABŞ-ın Asiyadakı rolu regional tarazlayıcı və barışdırıcı xarakter daşımalıdır. Təqribən Böyük Britaniyanın 19-cu əsrdə və 20-ci əsrin əvvəllərində Avropa siyasətində oynadığı rola bənzər bir rol. ABŞ Asiya dövlətlərini regional dominantlıq uğrunda mübarizədən çəkindirmək üçün onlara kömək etməlidir. O bunu münaqişələrdə vasitəçilik etmək və potensial rəqiblər arasında tarazlığı saxlamaq yolu ilə etməlidir. Bunu edərkən ABŞ Uzaq Şərqdə sabitliyin saxlanmasına, Çinin xüsusi tarixi və geosiyasi roluna hörmət etməlidir.

# Eldar Namazov: «Rusiya əvvəlki kimi olmayacaq»




**Eldar Namazov**

*«Rusiyada başlayan dalğanın Azərbaycana da təsiri olacaq». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında «Azərbaycan Naminə» İctimai Forumun prezidenti Eldar Namazov deyib: «Rusiyada başlayan dalğa həqiqətən də Azərbaycana aid olan dalğadır. Tunisdə başlayan dalğa isə ilk növbədə qonşu ərəb ölkələrinə birbaşa təsir etdi. Rusiyada baş verənlərin isə birbaşa Azərbaycana, ən azı Gürcüstana, Ermənistana, eyni zamanda yəqin ki, Ukrayna, Moldova, Belarusa da təsiri olacaq».*

E.Namazov: «O mitinqə qədər bir Rusiya var idi. O mitinqdən sonra isə tamam başqa, vətəndaş cəmiyyəti kifayət qədər fəal olan, öz hüquqlarını müdafiə edən Rusiya var. Bu hadisələr Putin hakimiyyəti üçün də çox gözlənilməz oldu. Onlar özlərini itirdilər və çox ciddi səhvlərə yol verməyə başladılar. Bu o demək deyil ki, sabah Rusiyada hər şey dəyişəcək. Ancaq dəyişikliklər artıq başladı. Bu elə bir prosesdir ki, onun qarşısını da almaq çox çətindir».

E.Namazov yazıçı-publisist Rafiq Tağının qətlinə diqqət çəkdi: «Bu, təkcə Rafiq Tağıya qarşı deyil, Azərbaycanda dünyəvi dövlətin əsaslarına, vətəndaş cəmiyyətinə qarşı olan terror aktıdır. Təhlükə var. Amma mən əminəm ki, Azərbaycan cəmiyyətində məhz dünyəvi demokratik prinsipləri seçən insanlar əksəriyyət təşkil edir».

Politoloq özünü demokrat adlandıran müxalifətçilərə müraciət etdi: «Onlar gərək Rafiq Tağının qətlini savab iş sayanların səsləri haqda düşünməsinlər. Bu haqda düşünməyə başlasalar, bu, artıq siyasət deyil, tamam başqa bir şeydir...».

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Yarıuçuq evdə yaşayan azərbaycanlı milyoner

## 50-60 milyonluq zavodlar adına keçirilən Gəray Məmmədovun jurnalistlərə dedikləri


Gəray Məmmədov

**Xətai Rayon Məhkəməsində Zülfüqarlı qardaşlarının təsisçisi olduqları «Birlik» MMC-yə məxsus «Bakı Elektroştamp» və «Bakı Poladtökmə» zavodlarının əllərindən alınması ilə bağlı Lerik rayon sakini Gəray Məmmədova və Əmlak Məsələləri Dövlət Komitəsinə (ƏMDK) qarşı iddiaları üzrə məhkəmə prosesi keçirilir. Dekabrın 12-də məhkəmə iclası Zülfüqarlı qardaşlarının vəkili Aslan İsmayılovun vəsatətləri ilə başlayıb.**

Əvvəlcə o, işin obyektiv araşdırılması üçün «Birlik» MMC-nin nümayəndəsi Cəfər Nuruşovun şahid qismində dindirilməsini xahiş etdi. O dedi ki, Cəfər Nuruşov Qiymətli Kağızlarla İş üzrə Dövlət Komitəsində «Birlik» Kiçik Müəssisəsinin adından alqı-satqı haqda müqaviləni imzalamağa məcbur olub. Amma həmin alqı-satqı müqaviləsinin bağlanması zamanı və ya sonra nə «Birlik» MMC-yə, nə də ki, onun təsisçiləri – Zülfüqarlı ailəsinə 3 milyon 609 min 200 manat məbləğində pul verilməyib. Bu müqavilə ilə ASC-nin 79,99 faizinin Zülfüqarlı qardaşlarının əlindən alınması rəsmiləşib.

### «GƏRAY MƏMMƏDOV MƏHKƏMƏYƏ GƏLSƏ GÖRƏCƏKSİNİZ Kİ...»

Vəkil məhkəmədən Əmlak Məsələləri Dövlət Komitəsinə sorğu göndərməsini də xahiş etdi. O dedi ki, bu sorğuyla «Bakı Poladtökmə» ASC-nin investisiya müsabiqəsində satılmış səhmləri üzərində mülkiyyət hüququnun rəsmiləşdirilməsi ilə bağlı müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi haqda icra aktının alınması vacibdir: «Həmin sənədlər «Birlik» MMC-in «Bakı Poladtökmə» ASC-yə nə qədər investisiya qoyulduğunu təsdiq edir. Bu investisiyalardan 3 il sonra zavodun 3 milyon 609 min 200 manata heç kəsin tanımadığı Gəray Məmmədova satılması absurddur və əqdin qeyri-qanuni olduğunu sübut edir».

*Aslan İsmayılov Zülfüqarlı qardaşlarının zavodları adına rəsmiləşdirilən Gəray Məmmədovun formal bir şəxs olduğunu da bildirdi:* «O adam bura gəlsin, görəcəksiniz ki, onun kredit, kredit müqaviləsi barədə anlayışı belə yoxdur. Elə məhkəmə zalının qapısından içəri daxil olması kifayət edəcək ki, onun ümumi görünüşündən bunu proses iştirakçıları və məhkəmə sezsin. O, məhkəməyə gəlsə görəcəksiniz ki, onun adına banklardan götürülən kreditlər barəsində heç bir məlumatı yoxdur».

Hakim vəsatətləri təmin etmədi.

### 150 MİLYONLUQ ZAVOD SAHİBİ ƏSLİNDƏ XIRDAVAT ALVERÇİSİ İMİŞ

Lerik rayonunun Ordahal kənd sakini, işsiz Gəray Məmmədov 2006-cı il martın 30-da imzaladığı bir sənədə görə, Bakıdakı iki böyük zavodun «Bakıelektroştamp» və «Bakıpoladtökmə» zavodlarında 80 faiz payına sahibdir. Bu zavodlar hazırda Türkiyədə mühacir həyatı yaşayan Zülfüqarlı qardaşlarına məxsusdur. Zavodun sahiblərindən biri, qardaşların böyüyü Nurəddin Zülfüqarlının sözlərinə görə, onlara məxsus əmlakın 80 faizi qardaşı Loğmanla həbsxanada olduqları müddətdə, 2006-cı ildə əllərindən zorla alınaraq həmin Gəray Məmmədova verilib.

### BAKININ ƏN KASIB MƏHƏLLƏSİNDƏ

Məhkəmə prosesinə dekabrın 26-dək fasilə verildi. Proses bitəndən sonra Gəray Məmmədovu axtarmağa başladıq və yaşadığı ünvanı tapdıq. Bu şəxs Lerikin Ordahal kəndində qeydiyyatda olsa da, 16 ildir ki, Keşlə qəsəbəsindəki Şanxay yaşayış massivində yarıuçuq bir evdə yaşayır. Gəray Məmmədov elə evinin qapısındaca xırdavat malları satmaqla dolandığını dedi. Gəlişimizdən isə heç də razı qalmadı:

*- Siz bu qədər zavodların sahibi olaola niyə belə şəraitdə yaşayırsınız?*

- Sizi bura kim göndərib? Sizə mənim şəraitimlə tanış olmaq lazımdır? Get, mənim telefonumu gətir.

Gəray Məmmədov bu tapşırığı oğluna verir. Sonra oğlunun evdən gətirdiyi telefonla hara isə zəng vurur. Gəlişimiz barədə məlumat verir və necə hərəkət etmək barədə məsləhətlər alır. Danışığını bitirəndən sonra isə deyir ki, «vəkilimə etibarnamə vermişəm, nə sualınız varsa, gedin vəkilimdən soruşun».

Gəray Məmmədovun səs-küyünə yığışan qonşular onun zavod rəhbəri olduğunu eşidəndə təəccübləndilər:

- Mən birinci dəfə sizdən eşidirəm ki, bunun zavodu var.


İki böyük zavodun sahibi evinin önündə

- Ruslarda bir söz var - «postovnoy litso». Yəni ad mənim, dad başqasının.

### «QANUNU POZMUŞAMSA, QOY MƏNİ TUTSUNLAR»

*Gəray Məmmədov özü də əslində oyunun içərisində olmasından peşmançılığını etiraf edir:*

- Hər kəs öz əməlinin cavabını tapacaq. Heç kəs qanundan kənarda qala bilməz, heç kəs də konstitusiyadan qırağa qaça bilməz.

Gəray Məmmədov onu da deyir ki, əgər təqsiri varsa, qanunu pozubsa, qoy onu tutsunlar, cəzalandırsınlar. Baxış Zülfüqarlı deyir ki, zavodun 80 faizlik payı həmin adamın adına dövr edilsə də, onlara bir manat da pul verilməyib. Bundan sonra, sadəcə, qardaşları həbsxanadan buraxılıb. Bir müddət sonra isə məhkəmə onlara bəraət verib.

***Esmira Cavadova***

# «Mən fortepianoya ərə getmişəm»

## Azərbaycanlı sənətçinin dünyanı dolaşan şahzadə qızı


Əzizə Mustafazadə atası haqqında xatirələrini danışır

**Dekabrın 16-sı görkəmli bəstəkar, pianoçu, Azərbaycan caz musiqisinin banisi Vaqif Mustafazadənin vəfatının 32-ci ildönümü idi. O, 1940-cı ildə Bakıda anadan olub. «Leyli» vokal kvartetinin, yeni Caz-Muğam üslubunun yaradıcısıdır. Vaqif Mustafazadə 1979-cu ildə Daşkənddə ürək tutmasından vəfat edib və Bakıda dəfn olunub.**

*Beş il əvvəl - 2006-cı ildə onun qızı Əzizə Mustafazadə ilə bir müsahibəmiz olmuşdu. Həmin il oktyabrın 12-də Praqada verdiyi konsertindən sonra müxbirimiz Ülviyyə Əsədzadə onunla söhbət etmişdi. Vaqif Mustafazadəni anım günündə onun qızı ilə müsahibəni bir daha nəzərinizə çatdırırıq.*

Əzizə Mustafazadə 1969-cu il dekabrın 19-da Bakıda anadan olub. 17 yaşında Vaşinqtondakı «Thelonious Monk» müsabiqəsinin qalibi olub. Elə bu vaxtlar da anası ilə birgə Almaniyaya köçür. Debüt albomunu 1991-ci ildə buraxıb. Onun «Always» adlanan ikinci albomu Almaniyanın məşhur «ECHO» və «Phono Academy Prize» mükafatlarına layiq görülüb. Caz şahzadəsinin «Contrasts» adlanan sonuncu albomu 2006-cı ildə çıxıb.

**- İndi Əzizə nə işlə məşğuldur?**

- Yaşayıram, işimlə məşğulam. Fikirləşirəm ki, musiqiçi xaricdə yaşamalıdır. Əgər musiqiçi Azərbaycanda qalsa, Xəzərin təkrarolunmaz gözəlliyindən, isti yaydan, çimərlikdən zövq alsa - bu, düz olmaz. Onda, musiqi inkişaf etməz. Biz musiqiyə xidmət edirik. Musiqi xaricdə olmalıdır ki, onu bilsinlər. Tutaq ki, kimsə polis işləyir, ya siyasətçidir, onların peşələri elədir ki, xaricdə olmalarına ehtiyac yoxdur. Musiqiçilər, rəssamlar, ümumiyyətlə, incəsənət adamları mütləq xaricdə olmalıdır.

Deyim ki, heç məni də xaricə buraxmaq istəmirdilər. Yalnız anam Elza xanımın sayəsində mən xarici səhnəyə çıxa bildim. Məni də geri qaytarmaq, saxlamaq üçün cəhdlər oldu. Mən bunları sağlam yanaşma hesab etmirəm. Burada pis nə var ki, buraxın musiqiçiləri, öz sənətlərini dünyada nümayiş etdirsinlər.

**- Bakıdan nə xatırlayırsınız?**

- Mən Bakıdan yaxşı heç nə xatırlamıram, valideynlərimin iztirablarından başqa. Mən xatırlayıram ki, anamla gedirdik ev almaq üçün… Sonra xatırlayıram ki, anam atama görə haralarasa gedirdi, amma ona həmişə belə cavab verirdilər: «yenə gəldi öz ərini tərifləməyə». Sanki Vaqif Mustafazadə Azərbaycan xalqının oğlu deyildi, bir gürcü qadını gəlib onu tərifləyir.

O da yadımda qalıb ki, atam həmişə ürək ağrılarından şikayətlənirdi. Bilirsiniz vətənə, Azərbaycana məhəbbət mücərrəd hisslərdir. Xüsusən də Azərbaycana məhəbbət… Bunu izah edə bilmərəm nə üçün? Ola bilsin ki, insan başqadır, torpaq başqa. Azərbaycan magik gücə malik ölkədir. Hətta xaricilər orada olurlar və geriyə tamam başqa adam kimi dönürlər.

**- Bəs heç darıxmırsan?**

- Darıxmağına darıxıram. Amma mən öz yolumu tapmışam. Azərbaycan isə mənim ürəyimdədir. Üstəgəl, mənim musiqim də Azərbaycan musiqisidir. Ancaq məni başa düşmürlər, qınayırlar ki, niyə belə pisəm, niyə gəlmirəm. Eybi yoxdu, qoy onlar yaxşı olsun…

**- Bəs niyə getmirsən?**

- Alınmır, vaxt tapa bilmirəm.

**- Səni nə cəlb edir Azərbaycanda?**

- Mən orada olanda daxilən müdrikləşirəm. Tez-tez yuxularımda gedirəm.

**- Yuxularınızda nələri görürsünüz?**

- Qız qalasını, Xəzəri, bulvarı, bir də armudu stəkanda çay içən adamları…

Əzizə deyir atasının öləcəyi günü əvvəlcədən bilirmiş və Daşkənddə konsert verməyə gedən günün səhəri evdə güzgü yerə düşüb çilik-çilik olub. Ürəyinə damıb ki, nəsə olacaq. «Yalvardım ki, ata getmə. Qulaq asmadı». Həkimlər ona konsert verməyi qadağan etmişdilər. Vaqifin ölümündən üç gün sonra isə, atasının dili ilə desək, «Caziza»nın 10 yaşı tamam oldu.

Uğurlarına görə Əzizə anasına minnətdardır. İndi qızının bütün işlərini anası Elza xanım aparır, bir sözlə, onun bütün yaradıcılığı anası ilə bağlıdır. Elza xanım özü isə deyir ki: «O, mənim yox, Azərbaycanın qızıdır». Bu yerdə söhbətə Əzizə müdaxilə edir: «Ancaq çoxları qəzəblənirdi ki, Vaqif gürcü ilə ailə qurub. Lakin bizim ailəmizdə nə yaxşı şey olubsa bunların hamısı Elza xanımın adı ilə bağlı olub. Əgər Elza xanım olmasaydı nə mən, nə də Azərbaycan musiqisi xaricdə olmazdı». Şəkillər çəkir, oxumağı da sevir. Ən çoxsa fortepianonu. Deyir ki, «mən fortepianoya ərə getmişəm».

**- Əzizə, Azərbaycanca danışırsan?**

- Bir az... Çox çətindir. Mən Bülbül adına musiqi məktəbində oxuyanda pianoçular üçün yalnız rus sektoru var idi.

**- Bakıda dostlarınız olub?**

- Yox.

**- Bəs indi var?**

- Yox.

**- Axırıncı dəfə nə vaxt olmusunuz Bakıda?**

- Yadıma gəlmir.

**- Azərbaycanlılara sözünüz?**

- Yaşasın Azərbaycan!

***Ülviyyə Əsədzadə***

# Prokurorluq: “Bank işçiləri əmanətçinin pulunu mənimsəyib”



*Baş Prokurorluğun yaydığı rəsmi məlumata görə, Bakıda bir bankın işçiləri müştərinin imzasını saxtalaşdıraraq onun xeyli pulunu mənimsəyiblər. Dekabrın 15-də yayılan rəsmi məlumatda deyilir ki, vətəndaş Oqtay Cəfərov "Royalbank" ASC-yə qoyduğu 30 min manatı geri ala bilmədiyi üçün Yasamal Rayon Məhkəməsinə müraciət edib:* “Mülki işə məhkəmədə baxılarkən "Royalbank" ASC-nin Yasamal filialından 2009-2010-cu illər ərzində məxaric orderlərinə Oqtay Cəfərovun adından saxta imzalar edilməklə müxtəlif məbləğlərdə pul vəsaitlərinin cəmiyyətin Yasamal filialının keçmiş vəzifəli şəxsləri tərəfindən mənimsənilməsi müəyyən edilib.

Fakta görə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanılıb”.

Bu ittihamları hakim də haqlı bilsə, bank işçilərini 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə ilə cəzalandıra bilər.

Amma hələlik "Royalbank" ASC-nin bu ittihamlarla bağlı hər hansı mövqeyi ifadə edilməyib.

**DOĞUM TARİXİNİ DƏYİŞİB PENSİYA ALIB...**

Bu da Respublika Prokurorluğunun iddiasıdır. Prokurorluğun dekabrın 15-də yaydığı məlumatda qeyd edilir ki, Zərdab şəhər sakini Şəfəq Səfərəliyeva 26 dekabr 2006-cı il tarixdə yaşa görə əmək pensiyası təyin edilməsi üçün Dövlət Sosial Müdafiə Fondunun Zərdab Rayon Şöbəsinə müraciət edib: “Doğum tarixi saxtalaşdırılmış şəxsiyyət vəsiqəsini digər sənədlərlə birlikdə ərizəsinə əlavə edərək pensiya təyini üçün əsas olan 51 yaşa çatdığını göstərib. Təqdim edilmiş sənədlər əsasında Fondun Zərdab Rayon Şöbəsində ona yaşa görə əmək pensiyası təyin edilib və bununla da Ş.Səfərəliyeva qeyd edilən tarixdən 30 noyabr 2011-ci il tarixədək 4.6 min manat məbləğində pulu dələduzluq yolu ilə ələ keçirib”.

Rəsmi məlumatda bildirilir ki, bu hadisə ilə bağlı Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi qaldırılıb. Əgər məhkəmədə ittiham haqlı sayılsa, onu 3 min manatdan 5 min manata qədər cərimə, ya da əmlakı müsadirə olunmaqla və ya olunmamaqla 3 ildən 7 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

# İran Xəzərdə "Şahdəniz"dən üstün yataq tapıb?

**İRAN ŞAHDƏNİZDƏN DƏ BOL QAZLI YATAQ TAPIB?**

Bu həftə Xəzərin enerji sektorunda ən gurultulu xəbər İranın öz sularında ağlagəlməz dərəcədə nəhəng bir qaz yatağı aşkar etməsi oldu. Nəyə görə ağlagəlməz yazıram, çünki bu ölkənin neft naziri Rostam Qasseminin yerli KİV-lərə açıqlamasına görə, qazılan quyunun nəticələri ona dəlalət edir ki, buradakı qaz ehtiyatları 1,42 trln. kubmetr həcmindədir. İlk quyudanca belə bir ehtiyatın aşkar edilməsi o qədər də inandırıcı deyil.

**DOĞRUDANMI, MEQA YATAQ?**

Təbii ki, bunu kənardan təsdiq etmək mümkünsüzdür. Ancaq bəyan edilən həcmlərə də inanmaq çətindir. Xəzərin Azərbaycan və Türkmənistan hissələrində son 15 ildə təqribən 20 kəşfiyyat quyusu və bundan 2 dəfə çox qiymətləndirmə quyuları qazılıb. Aparılan qazma işlərinin nəticələrinə əsasən onu demək olar ki, artıq Xəzərin dərin sularında neft yatağı tapmaq imkanı yox dərəcəsindədir. Ancaq qaz yataqlarının aşkar edilməsi ehtimalı var.

Bunun bariz nümunəsi kimi 2011-cü ilin yayında açılan “Abşeron” qaz yatağını göstərmək olar. Geoloqlar diqqəti bir şeyə çəkirlər ki, iri qaz yataqları Xəzərin nəinki dərin sulu hissəsində, həm də dərin qatlarında cəmləşir. Məsələn, 2003-cü ildə “Abşeron” yatağında ilkin kəşfiyyat zamanı açılan laylar 6300 metr dərinlikdə idi, ancaq oradakı ehtiyatlar kommersiya baxımından cəlbedici həcmdə deyildi. 2011-ci ildə açılan laylardakı ehtiyatlar isə təqribən 7200-7300 metr dərinlikdə yerləşirdi. O cümlədən “Şahdəniz” yatağının dərin qatlarındakı laylar 7100 metr dərinlikdə cəmləşib.

Bu baxımdan İran tərəfin elan etdiyi yataq Xəzərin daha dərin sularında yerləşir, burada laylara olan təzyiq daha yüksək olmalıdır və qaz yatağı da daha dərində yerləşməlidir. Ancaq İran rəsmilərinin “Əmir Kəbir” qazma platformasının texniki parametrləri ilə bağlı bəzi açıqlamaları müəyyən şübhələr yaradır.

**Yazının davamını AzadliqRadiosu.az saytında oxuyun.**

# “Azadlıq” FM – yeni layihə davam edir




Cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda **AzadlıqRadiosunun Facebook Fane Pageində** də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. **“Azadlıq”FM**-in arxiv səhifəsi də var.

# Sahibsiz heyvanlar üçün sığınacaq təklifi



**«Məhəllədə bir sakit it var idi. Sahibsiz heyvanları öldürən işçilər neçə dəfə gəlib itə güllə atıb, itə dəyməyib. Bunlar da iti öldürmək üçün qarşısına çörək atıblar. İt gəldi çörək yeməyə, acından ölürdü, çörək yeyən arada gülləni vurdular. Belə vəhşilik olmaz axı...»**

Heyvanlara insanların münasibətlərindən gileylənən 27 yaşlı Zaqatala sakini Nizami Ramazanovdur. Yaşadığı rayonda sürücülərin vurub yanından keçdiyi heyvanları gətirib evində saxlayır, ilk yardım göstərir. Elə bu minvalla da 7 itə sahiblik edir.

**«İMAM İMZA VERMƏDİ Kİ...»**

*Nizami Ramazanov heyvanlara öz qayğısından əlavə, başqalarını da bu işə cəlb etmək üçün Zaqatala və Balakən rayonlarında 1000 imza toplayıb ki, dövlət sahibsiz heyvanlara sığınacaq tiksin:* «Veterinar həkimlərimiz çox savadsızdırlar. Onların çoxu hesab edir ki, sahibsiz heyvanlar öldürülməlidir. Bunu dindarlarımız da deyir. Zaqatalada məscidin imamı imza vermədi, deyir ki, murdardır, it-pişik öldürülsün».

Heyvanların müdafiəsinə qalxan Zaqatala sakini hazırda işsizdir, heç bir təşkilatda da təmsil olunmur. Azərbaycanda isə bu sahədə fəaliyyət göstərən qurumlar da az deyil. Onlardan biri Canlı Aləmin Mühafizəsi «Alyans» İctimai Birliyidir. Birlik küçələrdə dolaşan heyvanlar üçün klinikalar hazırlanması, sığınacaq tikilməsi üçün hökumət qarşısında bir neçə dəfə məsələ qaldırıb.

**ÖLDÜRÜLMƏYƏ VƏ SAXLANMAYA XƏRCLƏNƏN PULLAR**

*Birliyin sədri Mənsurə Rəsulzadə:* «Özümüzün sığınacaq üçün sahəmiz var. Çox sağ olsun o insan ki, 2 ha torpaq sahəsini bizim istifadəmizə verib. Digər tərəfdən başqa bir sponsorumuz da var, onun tikintisini boynuna götürüb. Orda biz böyük bir klinika tikmək istəyirik və müvəqqəti saxlama məntəqəmiz olacaq».

*Sahibsiz heyvanlar üçün saxlama məntəqəsinin xərclərinə gəlincə, Mənsurə Rəsulzadə deyir ki, bu məbləğ hər il sahibsiz heyvanlarla mübarizəyə ayrılmış vəsaitdən çox olmayacaq:* «Hər halda bir ildə 76 min heyvanın öldürülməsinə sərf edilən puldan çox azdır. Fundamentini o pulla qursaq, sonradan ianələrlə, işlədiyimiz layihələrlə biz bu heyvanları saxlaya bilərik. Dövlət Baytarlıq Xidmətinə də illik olaraq quduzluğa qarşı vaksinlər ayrılır».



Mənsurə Rəsulzadə

Dövlət Baytarlıq Xidmətinin məlumatına görə, respublika üzrə 240 mindən artıq it, pişik qeydiyyata alınıb və vaksinasiya olunub.

**SIĞINACAQ, YOXSA OTEL?**

Yazıçı Nərmin Kamal da küçədə-bacada rast gəldiyi heyvanlara diqqətsiz ötüşə bilmədiyini deyir, onları evinə gətirir, sahib tapana qədər saxlayır. Hətta o, 1 il əvvəl Bakıda aksiya keçirib, heyvanları qorumağa çağırmışdı.

*Yazıçı deyir ki, heyvan hüquqları ilə məşğul olan, heyvanlar üçün sığınacaq elanları verən qeyri-hökumət təşkilatlarının da işindən razı deyil:*

«Mən konkret olaraq bildim ki, onlardan biri otelçiliklə məşğuldur. Yəni, məsələn, zəngin insanlar gedir hansısa ölkəyə, bunun iti, ya da pişiyi evdə qalır. Ona görə pulla otel kimi saxlatdırır həmin sığınacaqda. Yenə də küçədə it-pişik eyni vəziyyətdə yaşayacaqsa, bu sığınacaq niyə açılıb? Bax bu dəqiqə mənim evimdə 2 pişik qalıb, birinin ayağı şikəstdir, biri də onun qardaşıdır deyə, mən onu atmıram. Onları verməyə bir sığınacaq axtarıram, amma yoxdur».



Nərmin Kamal

**POLİQON NİYƏ YARADILIR?**

*Sahibsiz heyvanların küçələrdən yığışdırılması ilə bağlı Bakı Şəhər Mənzil Kommunal Departamentinin Sahibsiz Heyvanlarla Mübarizə İdarəsi məşğul olur.*

*İdarədən Trend-ə verilən məlumata görə, Azərbaycanda sahibsiz itlər üçün poliqon yaradılacaq:*

«İtlərin poliqona verilərək orada əhliləşdirilməsi məsələsi müzakirə edilmir. Amma bəlkə də gələcəkdə oradakı itlərin dərisindən istifadə edilə bilər. Nəzərə alaq ki, antisanitar şəraitdə yaşadıqları üçün küçə itlərinin dərisi yaxşı olmur. Amma yaxşı qulluq edildikdən sonra onların dərisi də yaxşılaşa bilər».

Azərbaycan 2007-ci ildən heyvanlara humanist münasibəti tələb edən konvensiyaya qoşulduqdan sonra itlərin öldürülməsi rəsmən dayandırılıb, amma Canlı Aləmin Mühafizəsi «Alyans» İctimai Birliyinin sədri Mənsurə Rəsulzadə deyir ki, onların güllələnməsi gizli şəkildə həyata keçirilir.




"250 plyus" gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

- Kim bilir, Azərbaycanın ən hündür zirvəsi hansıdır? Şahdağ?
- Bəxtiyar Hacıyev və Cabbar Savalanın dəhşətli təhlükəsi
- Zooparkda etiraz aksiyası (250Plyus)

# Şarl Aznavur: "Ermənistanda daxili soyqırım baş verir"



Şarl Aznavur

**"İndi mənim ölkəmdə daxili soyqırım baş verir. Mən bunu siyasi baxımdan yolverilməz sayıram. Ermənistana nəfəs almağa imkan verməməklə hakimiyyət ölkəni gənclərdən məhrum edir - onlar baş götürüb ölkədən gedirlər. Bu mənada problem artıq siyasi yox, ümumbəşəri xarakter alıb və onu tez bir zamanda həll etmək lazımdır".**

Bunu dekabrın 12-də dünya şöhrətli erməni müğənnisi, Ermənistanın İsveçrədəki səfiri Şarl Aznavur bildirib. 87 yaşlı müğənni Moskvadakı son solo konserti ərəfəsində mətbuat konfransı keçirib (VİDEO).

Aznavur erməni dilini bilməsə də, ömrünün böyük hissəsini Fransada keçirsə də, bir neçə il əvvəl İsveçrəyə köçüb. O, tezliklə səhnədən getməyi düşünür. Fransız şansonunun canlı əfsanəsi sayılan Aznavur uzun karyerası zamanı Frenk Senatra, Edit Piaf, Luçano Pavarotti kimi karifeylərlə eyni səhnəni bölüşüb.

Onun bəstələdiyi mahnıları Rey Şarl, Xulio İqlesias kimi məşhur müğənnilər ifa edib. Aznavur ilk dəfə deyil Ermənistan haqda tənqidi fikirlər səsləndirir. Bu ilin avqustunda o, Fransada nəşr olunan "Nouvelles d'Arménie» jurnalına verdiyi müsahibədə demişdi: "Ermənistan gündən-günə boşalır. Bu kimə sərf edir? Mafiyanın bir neçə rəhbərinə. Mafiozi olmaq istəyirsiz? Öz mafiyanızı başqa ölkədə yaradın. Bunu öz ölkənizdə etməyin. Bunu öz xalqınıza qarşı etməyin".

# 11 ayda yol qəzalarında 940 nəfər ölüb, 3037 nəfər xəsarət alıb

Respublika Baş Dövlət Yol Polisi İdarəsi bu ilin 11 ayı ərzində ölkə ərazisində baş verən yol qəzalarının statistikasını açıqlayıb. İdarənin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev «APA»ya bildirib ki, cari ilin ötən 11 ayı ərzində respublikada 2820 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 940 nəfər ölüb, 3037 nəfər isə xəsarət alıb. Respublikada baş verən yol qəzalarının 1211-i Bakı şəhərində törədilib. Həmin qəzalarda 335 nəfər ölüb, 1288 nəfər xəsarət alıb. Yol qəzalarının 1266-sı sürət həddinin aşılması nəticəsində baş verib. 365 piyada həyatını itirib, 842 nəfər isə xəsarət alıb. Yol qəzalarında ölənlərdən 92-si 16 yaşınadək olan uşaqlar.

# Azərbaycan Beynəlxalq Bankının reytinqi aşağı düşdü

Fitch reytinq agentliyi Azərbaycanın Beynəlxlaq Bankının (ABB) uzunmüddətli və qısamüddətli, fərdi və dayaq reytinqlərini aşağı salıb. Uzunmüddətli reytinq əvvəl "BBB-" idisə, indi "BB+"-dur. ABB-nin reytinqlərinin endirilməsinə səbəb bankın rekapitalizasiyasının, yəni borclarının səhmlərinə nisbətinin qaydaya salınmasının ləngidilməsi, bankın tənzimləmə qaydalarına riayət etməməsidir.

Fitch hesab edir ki, ABB-nin vaxtlı-vaxtında kapital dayağı yoxdur, ona görə bankın reytinqi investisiya səviyyəsində qala bilməz. Ancaq Fitch eyni zamanda gözləyir ki, Azərbaycan hakimiyyəti ABA-ya kömək edəcək. ABA-ya indi verilən "BB+" reytinqi məhz Azərbaycan hökumətinin kömək verəcəyinə olan ümidi əks etdirir. Bu olmasa, Fitch ABA-nın reytinqini yenidən aşağı salacaq. Fitch hesab edir ki, əgər yardım 2012-ci ilin 15 yanvarına kimi verilməsə, bankın kreditorlarla problemləri yaranacaq.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Zeynalabdin Tağıyevin qızını niyə ruhi xəstəxanaya saldılar?**


**Ramiz Rövşən: "Mənə xüsusən doğma və əziz olan 4 ad var"**


**Qədir Rüstəmov 2-ci Fəxri Xiyabanda dəfn edildi**


**Tanınmış opera müğənnisi Firəngiz Əhmədova dünyadan köçdü**


Eyvaz Zeynalov: **"Rafiq Tağı əlindəki qovluğu niyə sinəsinə sıxardı?"**

# Misirdə alkoqol və bikini davası gedir



Misirdə turistlər bu cür geyimdə çimməli olacaq

**Misirdə islamçıların hakimiyyətə gəlməsi ölkənin turizm potensialına mənfi təsir göstərə bilər. Hazırda ölkə ictimaiyyətində bu məsələ ilə bağlı ciddi müzakirələr gedir. "Frans Press" Agentliyi yazır ki, Əl-Nur Partiyasının üzvləri olan sələfilər bəyan edirlər ki, Misirdə yalnız halal turizm mövcud olmalıdır. Konkret olaraq, otellərdə içki verilməməli, qadınlar çimərlikdə bikinidə gəzməməlidir. Dn xadimi Yasser Burhami deyib ki, beşulduzlu otellərdə də alkoqol verilməməlidir. Burda qadınlar yalnız kişilərdən ayrılıqda İslam qayda-qanunlarına uyğun olaraq dincələ bilərlər: "Turistlər bikinidə gəzib bizim gəncləri yoldan çıxarmamaıldırlar".**

Əl-Nur Partiyasının sözçüsü Nader Bakkar isə turizmi qadağan etmək niyyətlərinin olmadığını bildirib: "Əksinə, biz turizmdən gələn gəlirin artmasını arzulayırıq".

"Frans Press"ə müsahibə verən digər Qahirə sakini İbrahim Məhəmməd də suvenirlər mağazasına gəlib-gedən olmadığından şikayətlənib:"Sələfilər çox radikaldılar. 30 il idi görünmürdürlər, indi birdən-birə ortaya çıxıb turizmi qadağan etmək istəyirlər".

İbrahim Məhəmməd deyib ki, indi Misirə gələn turistlər küçələrdə tək gəzmir, mağazalara baxmağa ürək etmirlər. Onlar əsasən piramidalara baxır və vaxtlarını oteldə keçirirlər. Ona görə də turistlərə hesablanmış bu cür bizneslər ziyan çəkir. Misirdə ÜDM-in 10 faizi turizm sektorunun payına düşür. Ötən həftə turizm sektorunda işləyən 1000-ə yaxın insan "halal turizmə" qarşı yürüş keçirib.

# Dünyanın ən məşhur allahsızı öldü



Christopher Hitchens, Noyabr, 2010

**Dünyanın ən məşhur ateistlərindən Christopher Hitchens 62 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib. Britaniyalı yazar, tənqidçi olan Hitchens öz fəaliyyətinə Britaniyada beynəlxalq sosializm jurnalında başlayıb. Hitchens Vyetnam müharibəsiylə bağlı siyasətinə etiraz edəndən sonra Leyboristlər Partiyasından uzaqlaşdırılmşdı.**

1980-ci ildə ABŞ-a mühacirətindən sonra o, Şöhrətpərəstlik Yarmarkası jurnalında redaktorluq edirdi. Amma Hitchensi məşhurlaşdıran nə ABŞ prezidenti Klinton haqda yazdığı "Yalan danışmağa adam qalmadı" kitabı, nə ABŞ-ın keçmiş dövlət katibi Henry Kissinger haqda yazdığı "Kissingerin məhkəməsi" kitabı, nə də məşhur filantrop Tereza ananı "fanatik Alban cırtdanı" adlandırması idi.

Hitchens 2007-ci ildə yazdığı "Allah Əkbər (Böyük) deyil: Din necə hər şeyi zəhərləyir" din əleyhinə kitabı və dinə qarşı fikirləri ilə məşhurlaşıb. Hithcens dini - xüsusən də İslamı zorakılığı yaymaqda, uşaqlara və qadınlara qarşı zorakılığı təbliğ eləməkdə, insanları qatil olmağa sövq etməkdə ittiham edir, Quranın yəhudi və xristian əfsanələri əsasında yazıldığını, dindarlığın özünün ən böyük günah olduğunu iddia edirdi.

AzadliqRadiosu.az saytında daimi rubrika:




# Dini ədəbiyyatın qadağası?

## Media Hüququ İnstitutu Azərbaycanda ifadə azadlığına ciddi təhlükə yaradacaq qanuna etiraz edir

**Media Hüququ İnstitutu hesab edir ki, "müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və yayma"ğa görə ağır cinayət cəzaları müəyyən edən sənəd belə təhlükə törədir.**

Media Hüququ İnstitutunun bu gün yaydığı bəyanatda qeyd olunur ki, sənəddə qoyulan tələblər ifadə azadlığı ilə bağlı Konstitusiyanın tələbləri və Avropa İnsan Haqları Konvensiyasının 10-cu maddəsi ilə təmin edilən ifadə azadlığı haqları ilə daban-dabana ziddiyyət təşkil edir.

**BU QADAĞA ÖN SENZURA ANLAMINA GƏLİR**

"Hər hansı ədəbiyyatı və ya məlumatı çap etmək və yaymaq üçün razılığın tələb olunması ön senzura anlamına gəlir və ifadə azadlığı hüququnun heç nə ilə bəraətləndirilə bilməyən pozulmasıdır".

Media Hüququ İnstitutu bildirir ki, məzmunundan (istər dini, istərsə də başqa) asılı olmayaraq hər hansı "ədəbiyyatı", "əşyaları" və "başqa məlumat materiallarını" çap etmə, idxal etmə, satma və yayma ifadə azadlığı hüququndan istifadə etmə formalarıdır.

**ZƏRƏRLİ ƏDƏBİYYATI EYNİ DİNİ İCMALAR YAYIR**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi isə hesab edir ki, Cinayət və İnzibati Xətalar məcəllələrinə əlavə və dəyişikliklərin olunması dini durumdakı mövcud reallıqlardan qaynaqlanıb. Komitədən AzadlıqRadiosuna göndərilən məlumatda bildirilir ki, dini ədəbiyyatın yayılması sahəsində baş verən qanun pozuntuları bir çox hallarda eyni dini icmalar və şəxslər tərəfindən təkrarlanır. Bu sahədə qaydalar ona görə sərtləşdirilib.

# Facebook-dan imtina edənlər... onların arqumenti nədir?




Amerikalı tələbə Tyson Balcomb "New York Times"a danışır ki, bir dəfə liftdə bir qadın ona tanış gəlib. Tysonun yadına düşüb ki, həmin qadını Facebook-dan tanıyır, o, Vaşinqton sahilinə yaxın kiçik bir adada yaşayır, üstəlik də həmin qadının böyük qardaşının da şəklini görüb: "Onun haqqında bütün bunları bilsəm də, heç zaman onunla ünsiyyətim olmamışdı" – deyən Tyson Facebook-da həmin qadınla müştərək dostlarının olduğunu, buna görə də həmin məlumatları gördüyünü bildirir: "Bu fikirlər ağlımdan keçəndə anladım ki, bu heç də sağlam mühit deyil".

Beləliklə, Tyson Facebook-u tərk edib.

**TƏKCƏ ABŞ-DA 200 MİLYON İSTİFADƏÇİ**

Facebook sosial şəbəkəsinin dünyada 800 milyon nəfərdən çox üzvü var. Bunların 200 milyon nəfəri təkcə ABŞ-dadır. Amma sosial şəbəkəyə qoşulanların sayı çox olsa da, bəzi insanlar ya ümumiyyətlə Facebook-da olmaq istəmir, ya da hesablarını bağlayıb oradan çıxır. Facebook insanlara bir-biri ilə virtual ünsiyyət qurmaq şəraiti yaradır. Amma bəziləri deyir ki, Facebook-a aludə olmaq, əksinə, insanı real ünsiyyətdən eləyir.

**VİRTUAL, YOXSA REAL ÜNSİYYƏT**

"Pew Internet and American Life Project" layihəsində çalışan Amanda Lenhart bildirir ki, Facebook-dan istifadə edənlərdə ümumilikdə başqa insanlara və təsisatlara inam meyili yaranır. Əlbəttə, bəzilərinin sosial şəbəkədən imtina etməsi, sadəcə, televiziyanın yaradıldığı ilk illərdə televizora baxmayacağını deyənlərin arqumentlərini xatırlada bilər, amma bəziləri ən müasir telefon və başqa avadanlıqlardan istifadə edə bilsələr də, şüurlu şəkildə real ünsiyyətə üstünlük verirlər.

# Azərbaycanda qızıl və gümüş hasilatı azalıb



Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda 1 637 kq qızıl hasil edilib ki, bu da 2010-cu ilin eyni dövrünə nisbətən 11.8% azdır. Bu haqda Dövlət Statistika Komitəsi məlumat verir. Bununla yanaşı, hesabat dövründə ölkədə 1 122 kq gümüş hasil edilib. Bu da ötən ilin yanvar-noyabr aylarına nisbətən 3% azdır.

Cari ilin dekabr ayının 1-nə Azərbaycanda qızılın hazır məhsul ehtiyatı 32 kq, gümüşün isə 25 kq olub. Ümumiyyətlə, 2011-ci ilin yanvar-noyabr aylarında Azərbaycanda 2 759 kq qiymətli metal filizləri və konsentratlar hasil olunub ki, bu da 2010-cu ilin analoji dövrü ilə müqayisədə 8.5% azdır. Azərbaycanda qızıl ehtiyatları ölkədə hasil olunan qızılın alınması və onun İsveçrədə emal edilməsindən sonra əldə olunan qızılın hesabına formalaşır. Ümumilikdə, ayın əvvəlində Azərbaycan Mərkəzi Bankında saxlancda olan Azərbaycana məxsus qızılın miqdarı 513.6 kq-a çatdırılıb. Onun hazırkı bazar dəyəri 28.4 mln. ABŞ dolları təşkil edir.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

Həmişə rahatlıqda...




*Mən bu şəklə baxdıqca, sumqayıtlıların ən çox rahatlandıqları yeri tanıdım.* ***Yüklədi: Elçin Həsənov***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliq**

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz